# "Ekolizinq" Məhdud Məsuliyyətli Cəmiyyətinin risk qiymətləndirmə

# Ümumi məlumat

| | "Ekolizinq" Məhdud Məsuliyyətli Cəmiyyəti |
|---|---|
| VÖEN | 1303596351 |
| Hüquqi ünvanı | AZ1122, Bakı şəhəri, Yasamal rayonu, Xarici Dairəvi Yol, ev.4 |
| Yaranma tarixi | 11.03.2014 |
| İqtisadi sektor | Lizinq fəaliyyəti |
| Müştərinin kodu | 021-A/21 |
| İnvestAZ İŞ ilə əməkdaşlıq tarixi | 04.08.2021 |

| | |
|---|---|
| Rəsulov Elnur Qənimət oğlu | 100% / 10,000 AZN |

# Qiymətli kağız haqqında məlumat

| | |
|---|---|
| Məhsul | Qiymətli kağız (istiqraz) |
| Məbləğ | 500,000.00 USD |
| İllik faiz dərəcəsi | 10.00% |
| Müddəti | 36 ay |
| Kupon ödəmə tezliyi | Aylıq |

## Müştəri haqqında məlumat

"Ekolizinq" MMC 11.03.2014-cü il tarixində 1303596351 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır. "Ekolizinq" MMC Nizamnaməsi və qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə lizinq xidmətləri ilə məşğul olur. Bundan əlavə aşağıda qeyd edilən fəaliyyət növləri ilə məşğul ola bilər.

- Lizinq fəaliyyəti və onunla bağlı bütün əməliyyatların həyata keçirilməsi;
- Konsaltinq, maliyyə müşavirliyi, maliyyə agenti xidmətləri;
- Daşınmaz əmlakın alqı-satqısı, kirarəsi, icarəsi və lizinqi. Avtomobil və kənd təsərrüfatı texnikalarının ehtiyyat hissələrinin və avadanlıqlarının idxalı, ixracı, alqı-satqısı, yük, sərnişin daşıma və minik avtomobillərinin, kənd təsərrüfatı texnikalarının və avadanlıqların idxalı, ixracı, alqı-satqısı, kirayəsi və lizinq fəaliyyəti, minik avtomobillərinin, avadanlıqların, icarəsi və lizinqi, xarici avtomaşınların və mexanizmlərinalqı-satqısı,avtomobillərin icarəsi və lizinqi, yük avtomobillərinin icarəsi və lizinqi, kommersiya alqı-satqı, istehsalat və təchizetmə, servis,nümayəndəlik, dilerlik, distributorluq, idxal və ixraz və ixrac, ticarət və sair fəaliyyət və xidmətlərin göstərilməsi;

Emitent maliyyə lizingi bazarında rəqabət aparır. Maliyyə lizinqin xidmətində əmlakın uzun müddətli icarəyə verilməsi və müqavilə müddəti sonunda bu əmlakın lizinqalanın mülkiyyətinə verilməsi nəzərdə tutulur. Bu növ lizinq xidməti Azərbaycanda geniş tətbiq olunur və lisenziyalaşdırılan fəaliyyət növlərinə aid edilməmişdir. Maliyyə lizinq bazarında nəzarətedici orqan olmadığından və müvafiq statistik məlumatların dərc edilmədiyindən bazarın ümumi həcmi haqqında məlumat mövcud deyildir. Banklar və bank olmayan kredit təşkilatları da bu fəaliyyət növü ilə məşğul olma hüququna malikdirlər və rəqabətin iştirakçılarıdırlar.

## Risk rəyi

| | |
|---|---|
| **Borcalanın adı** | "Ekolizinq" Məhdud Məsuliyyətli Cəmiyyəti |
| **Sektor** | Lizinq fəaliyyəti |
| **Sektor üzrə NPL** | -% |

| Risk növləri | Xülasə | Risk dərəcəsi | |
|---|---|---|---|
| **Hesabatlıq, şəffaflıq və korporativ idarəetmə ilə bağlı risklər** | **Maliyyə hesabatlığı**<br>Maliyyə məlumatları şirkətin daxili hesabatlığı əsasında tərtib edilmişdir və 30.06.2023-cü il tarixini əhatə edir. Hesabatlığın əsas maddələrinə dair (kredit portfeli, əməliyyat xərcləri və s.) ətraflı bölgü təqdim olunmuşdur. Odur ki, hesabatlığın keyfiyyəti **(reporting quality) mövcud vəziyyətdə yüksək** kimi qiymətləndirilmişdir. Əlavə olaraq keçmiş illərin audit hesabatları da təqdim edilmişdir. | **Aşağı** | **Aşağı** |
| | **Korporativ idarəetmə səviyyəsi**<br>“Ekolizinq” MMC-nin ali idarəetmə orqanı onun iştirakçılarının ümumi yığıncağıdır. “Ekolizinq” MMC -nin cari fəaliyyətinə direktor nəzarət edir. Cəmiyyət “RF TAX Consulting 2015” MMC tərəfindən audit edilmişdir. **2022-ci ilin auditor rəyinə əsasən:** “Ekolizinq” MMC -nin maliyyə hesabatları şirkətin 31.12.2022-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından IFRS standartlarına uyğun olaraq düzgün əks etdirir **(unqualified / clean opinion).** | **Aşağı** | |
| **Nüfuz riski** | İnternet vasitəsi ilə apardığımız araşdırma nəticəsində əsas təsisçisi olan Rəsulov Elnur Qənimət oğlu haqqında mənfi xarakterli xəbərlər aşkar edilməmişdir.<br>Eyni zamanda qeyd edək ki, “Ekolizinq” MMC -nin anderrayteri olduğumuz müddət ərzində cəmiyyət öhdəliklərini vaxtında icra etməkdədir. | | **Aşağı** |

| Risk növləri | Təsviri | Risk dərəcəsi |
|---|---|---|
| Maliyyə riskləri | <u>**Balans hesabatı**</u><br>31.12.2022-ci il tarixinə biznesin **aktivlərinin cəmi 4.1 mln AZN** məbləğində olmuşdur. Aktivlərin **47 %-i (2.2 mln AZN)** kredit portfeli təşkil edib.<br>30.06.2023-cü il tarixinə aktivlərdə 0.7 % (və ya 32 min AZN) artım müşahidə edilmişdir. Artım əsasən kredit portfeli maddəsi üzrə baş vermişdir. Eyni zamanda "kapital" göstərici üzrə artım (18.7 min AZN) müşahidə edilmişdir. Son 3 ilə baxdıqda bank borclanması (istiqrazla daxil olmaqla) da azalmışdır: 3.9 mln AZN-dən 2.1 mln AZN-dək (46%).<br>**Time-series analysis:** 2021-ci il ilə müqayisədə aktivlərin həcmində azalma (11 % və ya 472 min AZN) müşahidə edirik. Azalma isə birbaşa kredit portfelinin azalması ilə əlaqədardır; aktivlərin strukturunda dəyişikliklər müşahidə edilməmişdir.<br>Eyni zamanda kredit portfelinin azalması fonunda şirkətin dövriyyəsində də azalma qeydə alınmışdır.<br>**Ümumilikdə isə "Ekolizinq" MMC -nın fəaliyyətində artım trendlər müşahidə edilməkdədir. Belə ki, 2022-ci ildə xalis mənfəəti 80,455.66 manat təşkil etmişdir. Son 3 ildə kredit portfeli 45%, aktivlər 28%, azalmışdır, lakin kapital isə cəmi 8.6% artmışdır. "Ekolizinq" MMC orta hesabla illik qazanılan xalis mənfəəti tamamilə biznesdən əldə edir.**<br><u>**Mənfəət-zərər hesabatı**</u><br>2022-ci ilin nəticəsinə görə "Ekolizinq" MMC - nın dövriyyəsi **740,070.84** AZN; **EBIT-ı 100,569.57 AZN;** xalis mənfəəti isə **80,455.66** AZN təşkil etmişdir. | Aşağı |
| Kredit portfeli | • Təhlil tarixinə portfelin PAR göstəricisi 19 % səviyyəsindədir. **Son 3 ildə PAR göstəricisi demək olar ki, eyni səviyyədə qalmışdır** (31.07.201 PAR 19% → 30.09.2023 PAR 19%). **Kredit portfelinin azalması fonunda PAR göstəricisinin eyni səviyyədə qalması mənfi hal kimi qiymətləndirilə bilər.**<br>• Son 2 ildə "Ekolizinq" MMC 520 min AZN məbləğində ehtiyat yaradmışdır.<br>• Kredit portfelinin əksəriyyəti uzunmüddətli maliyyə lizinqi təyinatlı kreditlər təşkil edib.<br><br>Ümumilikdə qeyd etmək olar ki, **"Ekolizinq" MMC tərəfindən kredit portfelinin idarə edilməsi qənaətbəxş səviyyədə aparılır.** | Aşağı |

| Biznes riskləri | Biznesin əsas risk növləri üzrə qiymətləndirilməsi | Aşağı |
|---|---|---|

**Biznesin əsas risk növləri üzrə qiymətləndirilməsi**

| Risk növü | Risk səviyyəsi | Açıqlama |
|---|---|---|
| **Alıcılardan asılılıq riski** | Aşağı | Müştəri bazarı üzrə təmərküzləşmə riski mövcud deyil. |
| **Rəqabətlik riski** | Yüksək | Maliyyə bazarında rəqabətlik yüksək səviyyədədir. Təhlil tarixinə Lizinq təşkilatının dəqiq sayı müəyyən deyil. Emitent öhdəliklərini vaxtında icra etməkdədir. |
| **ESG riski** | Aşağı | Verilən kreditlər uzunmüddətli maliyyə lizinqi təyinatlı olduğu üçün ekologiya hər hansı təsiri mövcud deyil. |
| **Xarici valyuta riski** | Aşağı | Maliyyə vəsaitləri həm milli valyutada, həm də xarici valyutadadır. Kreditləşmə eynilə həm milli valyutada, həm də xarici valyutada aparılır. |
| **Menecment riski** | Aşağı | Biznesin idarə edilməsi bir nəfərdə (son benefisiar) cəmlənmişdir. |
| **Siyasi risk** | Aşağı | N/A |




## YEKUN RƏY

| Aşağı risk | Orta risk | Yüksək risk |
|---|---|---|
| Hesabatlığın keyfiyyəti<br>Nüfuz riski<br>Biznes riskləri<br>Kredit portfeli üzrə risklər | Maliyyə riskləri | ---------- |

| | |
|---|---|
| **Yekun rəy** | "Ekolizinq" MMC -nın qənaətbəxş maliyyə vəziyyətini, bazarda uzun müddət fəaliyyət göstərməsi, təklif olunan istiqrazları bazar faiz dərəcəsinə üzərində olması, 500,000.00 min USD məbləğində **istiqraz emissiyasının anderraytinq edilməsinə** **rəy müsbətdir.** |